RUSIYA FEDERASIYASI PREZIDENTI
YANINDA UŞAQ HÜQUQLARI ÜZRƏ MÜVƏKKIL



BÜLLETEN

# Rusiya Federasiyası Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkil Mariya Lvova-Belovanın xüsusi hərbi əməliyyat zamanı uşaqların müdafiəsi üzrə fəaliyyəti

Buraxılış № 3 / 19 iyun 2024



## Hörmətli oxucular!

Biz Rusiya Federasiyası Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkilin xüsusi hərbi əməliyyat (XHƏ) zamanı uşaqların müdafiəsi üzrə fəaliyyəti barədə bülletenin üçüncü buraxılışını hazırlamışıq. Birinci buraxılış 4 aprel 2023-cü ildə, ikinci – 13 oktyabr 2023-cü ildə təqdim edilmişdir. İkinci buraxılış Azərbaycan, ingilis, ərəb, erməni, ispan, çin və fransız dillərinə tərcümə edilmişdir.

Donbas uşaqlarının xilas edilməsi və dəstəklənməsi ilə hüquq müdafiə institutumuz XHƏ-nin ilk günlərindən məşğul olur. Prioritetlərimiz humanitar məsələlər və uşaqların və ailələrin təhlükəsizliyi olub və qalmaqda davam edir.

Bu günə qədər Donetsk Xalq Respublikasına on işgüzar səfərim, Luqansk Xalq Respublikasına yeddi, Zaporojye vilayətinə dörd və Xerson vilayətinə üç səfərim olmuşdur. Hazırda bizim üçün ən vacib vəzifələrimiz yeni bölgələrdə uşaq hüquqları üzrə ombudsmanların işini təşkili, yeni strateji proqramlarımızı inkişafı, habelə uşaqların regional müdafiə sistemlərinin effektiv edilməsidir.

Prezident Vladimir Putinin tapşırığı ilə yerinə yetirilən digər vacib istiqamət isə uşaqların Ukrayna, Rusiya və digər ölkələrdə yaxınları ilə qovuşması, bir araya gəlməsidir. Xerson, Zaporojye, Xarkov vilayətlərindən və digər ərazilərdən olan və 2022-ci ilin payızında Rusiyanın cənubundakı sanatoriyalara valideynlərinin öz qərarları ilə göndərilmiş və onlar tərəfdən vaxtında götürü bilmədikləri uşaqları nəzərə almasaq, ümumilikdə biz artıq 70 uşağı Ukraynadakı 52 ailə ilə qovuşdura bilmişik. Həmçinin doqquz uşağı Rusiyada beş ailə ilə qovuşdura bilmişik. Bu, beynəlxalq təşkilatlar və xarici tərəfdaşların köməyi ilə ciddi və əlaqələndirilmiş işin həyata keçirilməsini tələb edir. Hər bir hadisə - böyük sevinc və ilhamdır.

Təqdim olunan buraxılışda biz mövzuya dair aktual məlumatları, o cümlədən uşaqların Rusiyada, Ukraynada və digər ölkələrdə yaxınları ilə qovuşma tarixçələrinin siyahısını təqdim edirik (bax: Əlavələr).

**Mariya Lvova-Belova,**
Rusiya Federasiyası Prezidenti
yanında Uşaq Hüquqları üzrə Müvəkkil

## Uşaq Hüquqları üzrə Müvəkkillər İnstitutu Haqqında

Rusiya Federasiyası Prezidentinin yanında Uşaq Hüquqları üzrə Müvəkkil vəzifəsi 1 sentyabr 2009-cu il tarixli 986 nömrəli Rusiya Federasiyası Prezidentinin fərmanı ilə təsis edilmişdir.

Bu institutun inkişafında əhəmiyyətli addım 27 dekabr 2018-ci il tarixli 501-FZ saylı «Rusiya Federasiyasında Uşaq Hüquqları üzrə Müvəkkillər Haqqında» Federal Qanunun qəbul edilməsi oldu. Bu qanun həmçinin federal və regional müvəkkillərin hüquqi statusunu müəyyən etdi.

Müvəkkilin fəaliyyəti uşaqların hüquq və qanuni mənafelərinin dövlət tərəfindən qorunmasının təmin edilməsi, dövlət orqanları, yerli özünüidarəetmə orqanları, vəzifəli şəxslər tərəfindən uşaqların hüquq və qanuni mənafelərinin həyata keçirilməsi və qorunmasına yğnəlmişdir. Müvəkkil aşağıdakı sahələrdə kömək edir:

- Uşaqların pozulmuş hüquq və qanuni mənafelərinin bərpası;
- Uşaqların hüquq və qanuni mənafelərinin qorunması ilə bağlı Rusiya Federasiyası qanunvericiliyinin təkmilləşdirilməsi;
- Uşaqların hüquq və qanuni mənafelərinin qorunması sahəsində beynəlxalq əməkdaşlığın inkişafı;
- Uşaqların hüquq və qanuni mənafelərinin qorunması formaları və metodlarının təkmilləşdirilməsi.

Federal müvəkkil Rusiya Federasiyasının subyektlərində müvəkkillərin fəaliyyətinin koordinatoru kimi çıxış edir. Bu gün uşaq hüquqları üzrə müvəkkillər və region rəhbərlərinin müşavirləri 88 regionda fəaliyyət göstərir, yaxın zamanda Xerson vilayətində də uşaq ombudsmanının təyin edilməsi gözlənilir.

## XHƏ çərçivəsində RF Prezidentinin yanında Müvəkkilin vəzifələri

- Hərbi əməliyyat zonalarında olan uşaqların təhlükəsizliyinin təmin edilməsinə yardım.
- Uşaqların təhsil, tibbi yardım, müşayiət, psixoloji yardım, ailə mühiti və s. hüquqlarının təmin edilməsinə yardım.
- XHƏ dövründə müxtəlif səbəblərə görə öz ailələrindən ayrılmış uşaqların valideynləri və digər yaxınları ilə qovuşmasına kömək.
- Humanitar yardımın göstərilməsi.
- Hərbi əməliyyatların təsir göstərdiyi uşaqların psixoloji müşayiəti və reabilitasiyasının təşkili.
- DXR, LXR, Zaporojye və Xerson vilayətlərinin icra hakimiyyəti orqanlarına uşaqların qorunma sistemlərinin qurulmasında kömək.
- XHƏ dövründə uşaqların qorunması məsələlərində beynəlxalq təşkilatlar və tərəfdaşlarla əməkdaşlıq.

## XHƏ çərçivəsində RF Prezidentinin yanında Müvəkkilin iş prinsipləri

- Uşaqların və ailənin mənafeləri – əsas prioritetdir.
- Operativlik: hərbi əməliyyatlar şəraitində uşaqlara yardım sürətli göstərilməlidir.
- Ailə mühiti – uşağın harmonik inkişafı üçün əsas şərtdir.
- Şəffaflıq: müvəkkilin bütün fəaliyyəti KİV və sosial şəbəkələrdə işıqlandırılır.
- Fəaliyyətin tamamilə humanitar xarakteri.

## Ukraynanın hərbi təcavüzü nəticəsində xəsarət alan uşaqlara ödənişlər

Rusiya Prezidenti Vladimir Putin Mariya Lvova-Belovanın Ukraynanın hərbi təcavüzü nəticəsində xəsarət alan uşaqlara birdəfəlik ödəniş təklifini dəstəklədi. Bu ödənişlər 21.12.2023-cü il tarixli, 975 saylı “Ukraynanın hərbi təcavüzündən zərər çəkmiş uşaqları olan ailələrə sosial dəstək tədbirləri haqqında” Rusiya Federasiyası Prezidentinin fərmanı ilə müəyyən edilmişdir.

Artıq 241 uşaq bu yardımı almışdır, onların əksəriyyəti – 128-i Donetsk Xalq Respublikasındandır (DXR). Mobil xəstəxanalarda tibbi yardım göstərilən uşaqların sənədlərinin olmaması səbəbindən ödənişlərin alınmasında çətinliklər var. Yardım göstərmə mexanizmi təkmilləşdirilir.

## Müvəqqəti yerləşdirmə məntəqələrində uşaqların hüquqlarının qorunması

Regionlardakı uşaq hüquqları üzrə müvəkkillər müvəqqəti yerləşdirmə məntəqələrində (MYM) yaşayan ailələrə və uşaqlara yardım göstərilməsində iştirak edirlər. RF Prezidentinin yanında Uşaq Hüquqları üzrə Müvəkkil yeni regionlardakı uşaqlara və ailələrə yardım məsələlərinə dair sistemli həll yollarının hazırlanması üçün müntəzəm olaraq müşavirələr keçirir. Daha ətraflı məlumat "Xüsusi Hərbi Əməliyyat zamanı Rusiya Federasiyası Prezidentinin yanında Uşaq Hüquqları üzrə Müvəkkilin fəaliyyəti" bülleteninin 1-ci sayında verilib.

Bu gün uşaq hüquqları üzrə müvəkkillər müvəqqəti yerləşdirmə məntəqələrində yaşayan vətəndaşların müraciətləri əsasında zərurət yarandıqda tibbi, psixoloji, hüquqi, maddi və təhsil yardımı göstərirlər. Belə ki, 2023-cü ilin iyun ayında Mariya Lvova-Belova "Uşaqların özlərinə" aksiyası çərçivəsində Şebekino şəhər dairəsindən olan və Ukraynanın atəşinə məruz qalaraq evlərini tərk etmək məcburiyyətində qalan, habelə Belqorodda ailə mərkəzində müvəqqəti yaşayan 135 uşağa ümumi çəkisi 700 kq-dan çox humanitar yardım göndərmişdir. Humanitar yüklərə uşaq alt paltarları, geyim, şəxsi gigiyena vasitələri və inkişaf etdirici oyuncaqlar daxil idi.

Regionlardakı uşaq hüquqları üzrə müvəkkillər və ya başçıların müşavirləri – DXR, LXR, Krım Respublikası, Belqorod, Bryansk, Zaporojye, Kursk, Xerson vilayətləri və s. – geniş humanitar fəaliyyətlə məşğuldurlar. Onlar MYM-də yaşayan ailələri ziyarət edir, sənədlərin hazırlanması, ödənişlərin alınması, valideynlər üçün iş tapılması, uşaqların uşaq bağçalarına və məktəblərə qəbul olunması, humanitar yardımın gətirilməsi ilə bağlı köməklik göstərirlər.

**"Biz MYM-də bayramlar keçiririk, məsələn, Uşaqların Müdafiəsi Günündə idman yarışları təşkil etdik, uşaqlara hədiyyələr gətirdik. Bundan əlavə, uşaqları ekskursiyalara, tamaşalara aparırıq."**

**Bryansk vilayətində Uşaq Hüquqları üzrə Müvəkkil İnnaya Muxina**

**Şəxsi təşəbbüsü ilə Sevastopol şəhərində Uşaq Hüquqları üzrə Müvəkkil Marina Peşçanskaya, Xerson vilayətindən döyüş zonalarından şəxsi iş və tibbi kart olmadan gəlmiş 17 şagirdin məktəbə qəbul olunmasına köməklik göstərmişdir.**

Bundan əlavə, uşaq ombudsmanları xəstəxanalarda bombardman nəticəsində yaralanmış uşaqları ziyarət edir, lazım olduqda Mariya Lvova-Belova ilə birlikdə federal klinikalara göndərilməsinə köməklik göstərirlər.

**11 yanvar 2024-cü il tarixində Moskvada Mariya Lvova-Belova və Belqorod vilayətinin qubernatoru Vyaçeslav Qladkov 30 dekabr 2023-cü ildə Ukraynanın terror hücumu nəticəsində Belqorodda yaralanmış uşaqları xəstəxanalarda ziyarət etdilər. RF Prezidentinin yanında Uşaq Hüquqları üzrə Müvəkkil, Belqorodda Uşaq Regional Klinik Xəstəxanası üçün yaraların sağalmasına yardımçı lacaq aparat və sərf materialları təqdim etdi.**

Uşaq hüquqları üzrə müvəkkillər həmçinin Ukraynanın atəşlərinə məruz qalan yeni regionlar və döyüş xəttinə yaxın bölgələrdən olan uşaqlar üçün istirahət təşkilatında fəal iştirak edirlər. Onlar uşaq sağlamlıq düşərgələrində yetkinlik yaşına çatmayanların hansı şəraitdə yaşadıqlarını yoxlayır, valideynlərin müraciətlərinə operativ reaksiya verir və lazımi yardımı göstərirlər.

**"Uşaqlarımıza qayğı göstərən həmkarlarıma təşəkkür edirəm. Məsələn, Həştərxan vilayətində bir uşaq gələn kimi xəstəliyi səbəbindən xəstəxanaya yerləşdirildi. Mənim xahişimlə uşaq hüquqları üzrə müvəkkil Aleksandra Bondareva onu ziyarət etdi, şirniyyat hədiyyələri, pazl, rəsm ləvazimatları və meyvələr gətirdi."**

**Belqorod vilayətində Uşaq Hüquqları üzrə Müvəkkil Qalina Pyatıx**

Uşaq hüquqları üzrə müvəkkillər fərdi qəbullar keçirir və vətəndaşların müraciətlərini cavablandırırlar, əsas sorğular arasında – humanitar yardım, sənədlərin hazırlanması və ödənişlərin alınması, psixoloji dəstək kimi məsələlər yer alır. Hərbi əməliyyatlardan təsirlənmiş uşaqlarla işləmək üçün kadr hazırlamaq məqsədilə, müvəkkil Sankt-Peterburq Dövlət Universiteti və "Uşaqlar Üçün Ölkə" Xeyriyyə Fondu ilə birgə əlavə təhsil proqramını işə saldı. Bu proqramı Rusiyaın 26 regionundan 100 tərbiyəçi müşaviri, müəllim, psixoloq və hərbi hazırlıq təlimçisi keçdi. Proqram həm nəzəri, həm də praktiki modulları ehtiva edir.

## DXR, LXR və Xerson vilayətindəki sosial müəssisələrin təxliyə edilmiş hüquqlarının qorunması

2022-ci ilin fevral ayında DXR və LXR rəhbərləri Rusiya Federasiyası hakimiyyət orqanlarına mülki şəxslərin öz ərazilərində qəbul olunmasını xahiş etdilər.

2022-ci ilin fevral ayında Rusiya Federasiyasının ərazisinə gələn şəxslər arasında yetim uşaqlar və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün respublika internat müəssisələrinin yetirmələri də var idi (cəmi təxminən 2 min nəfər), onların qanuni nümayəndələri bu müəssisələrin direktorları və işçiləri idi.

DXR-dən olan uşaqların daha sonra Respublikanın qəyyumluq və himayəçilik sahəsində səlahiyyətli orqanlarının vəsatəti ilə Rusiya vətəndaşlarının ailələrinə qəyyumluğa verildi və ya Rusiyanın digər regionlarındakı müvafiq uşaq müəssisələrinə yerləşdirildi. Bu uşaqların hər birinin taleyi məlumdur. Onların hüquqlarının qorunması regionlardakı müvəkkillərin nəzarətindədir.

LXR-dən olan uşaqlar tam tərkibdə öz müəssisələrinə qayıtdılar. Daha sonra onların bir qismi Respublikanın qəyyumluq və himayəçilik sahəsində səlahiyyətli orqanlarının vəsatəti ilə Rusiya vətəndaşlarının ailələrinə qəyyumluğa verildi.

2022-ci ilin aprel-sentyabr aylarında Rusiyada yaşayan ailələrə Donbassdan olan 380 yetim uşaq qəyyumluğa verildi. Daha ətraflı məlumat “Valideyn himayəsindən məhrum olmuş uşaqların Rusiya vətəndaşlarının ailələrinə qəyyumluğa verilməsi” bölməsində verilmişdir.

2022-ci ilin noyabr ayında Xerson vilayətində cəbhə xəttinə yaxın ərazidə yerləşən Aleşkinski uşaq internat evi fəaliyyət göstərirdi. Müvəkkilin köməyi ilə ağır patologiyalı 52 yetirməsi təxliyəsi və təhlükəsiz əraziyə - Krım Respublikasına müvəqqəti köçürülməsi mümkün oldu. Orada olduqları müddətdə uşaqlar yerli icra hakimiyyəti orqanları, qeyri-kommersiya təşkilatları və xeyriyyəçilər tərəfindən bütün zəruri ehtiyaclarla təmin edilirdilər.

**2023-cü ilin avqust ayının sonunda RF Prezidentinin yanında Uşaq Hüquqları üzrə Müvəkkilin köməyi ilə Aleşkinski uşaq internat evindən bir oğlan uşağını Ukraynadakı nənəsinə təhvil vermək mümkün oldu. Qadın uzun müddət öz doğma nəvəsini müəssisədən götürə bilmirdi – sənədlərə əsasən qohumluq müəyyənləşdirmək mümkün deyildi. Oğlan uşağı valideynləri tərəfindən hələ XHƏ başlamazdan əvvəl internatda verilmişdi. Nənə ilə nəvənin qovuşması üçün müvəkkil aparatının təşəbbüsü ilə Rusiya Səhiyyə Nazirliyinin Məhkəmə-Tibb Ekspertiza Mərkəzinin dəstəyi ilə DNT ekspertizası təşkil olundu. Qohumluq təsdiqləndikdən sonra Mariya Lvova-Belovanın iştirakı ilə uşaq nənəsinə təhvil verildi.**

Aleşkinski uşaq ev-internatının məzunları artıq öz regionlarına, Skadovskdakı müvafiq sosial müəssisəyə qayıdıblar.

**2024-cü ilin mart ayında uşaq ombudsmanı Aleşkinski uşaq internat evinin on yaşlı yetirməsi nənəsi ilə qovuşdurmağa kömək etdi. Uşağı Ukrayna sərhədinə təcili yardım maşınında müşayiət edənlər aparırdılar.**

Bundan əlavə, müvəkkilin iştirakı ilə Xerson uşaq internat evindən Krımdakı “Yoloçka” Respublika ixtisaslaşmış sinir sistemi və psixi pozuntuları olan uşaqlar üçün internat evinə göndərilən yeddi uşaq yaxınları ilə qovuşdu.

**2024-cü ilin mart ayında bir ana Ukraynadan iki əkiz qızı ilə gəldi. Uşaqlar 2022-ci ilin yanvar ayında valideyn himayəsindən məhrum qalaraq Xerson Uşaq İnternat Evində yerləşdirilmiş və 2022-ci ildə təhlükəsiz əraziyə köçürülmüşdülər. Sonradan “Yoloçka” internat evində yaşayırdılar.**

## RF Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkilin ailələrin qovuşmasına kömək etməsi

Uşağın harada və hansı statusda olmasından, Rusiyada uşaq müəssisəsində, qəyyum ailəsində, Rusiya vətəndaşlığı olub-olmamasından asılı olmayaraq, əgər onun valideynləri və ya müvafiq hüquqları olan başqa bir qohumu varsa, ailə bir araya gəlmək, bir-birinə qovuşmaq üçün bütün imkanlara malikdir.

**Rusiya Prezidenti Vladimir Putin ailələrin qovuşması məsələsində mövqeyini aydın ifadə etdi: “Biz heç vaxt uşaqların ailələri ilə qovuşmasına qarşı olmamışıq, əlbəttə ki, əgər onların qohumları ortaya çıxarsa. Bu məsələdə**

**heç vaxt heç bir maneə olmamışdır, yoxdur və təbii ki, heç vaxt olmayacaq."**

Əksər hallarda uşaq valideynlərindən biri və ya qohumu ilə birlikdə olur. Bu halda digər ailə üzvləri ilə qovuşma tələbi yaranır. Çətinliklər lazımi sənədlərin olmaması, nəqliyyat xərcləri və ailə münaqişələri ilə bağlı ola bilər.

**Qovuşmanın bir neçə yolu var:**

- ailələr məsələni müstəqil və ya könüllü təşkilatların köməyi ilə həll edir, bu halda hər hansı inzibati kömək tələb olunmur;
- ailələr və ya könüllü təşkilatlar RF Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkilə müraciət edir;
- ailələr rəsmi Ukrayna strukturlarına müraciət edir, onlar isə məlumatı RF Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkilin aparatına, xüsusilə də Qətərin vasitəçiliyi ilə, ötürürlər.

Müvəkkil aparatı müraciət edən hər kəsə operativ şəkildə kömək edir. Bu iş XHƏ başlandığı tarixdən aparılır və fərdi xarakter daşıyır.

Bunun üçün aparat axtarılan uşaqların məlumat bazasını aparır. Ukrayna tərəfi ilə hər bir sorğunu işləmək üçün işçi əlaqə kanalı təşkil olunub. Bu kanal vasitəsilə lazımi sənədlər, məlumatlar mübadiləsi aparılır, ailələrin qovuşma prosesi koordinasiya edilir. Uşaqlar həm Rusiyada, həm də Ukraynada ola bilərlər; bəzi hallarda isə söhbət üçüncü ölkələrdə olan uşaqlardan, məsələn, Aİ ölkələrindən gedir. 2023-cü ilin oktyabr ayından etibarən Ukrayna tərəfi ilə kommunikasiya və qovuşma işi əsasən Qətər Dövlətinin vasitəçiliyi ilə həyata keçirilir (Ətraflı məlumat – "Müvəkkilin və Qətər Dövlətinin əməkdaşlığı").

**Müvəkkil aparatı tərəfindən sorğu emalının alqoritmi altı addımdan ibarətdir:**

1. Axtarılan uşağın tam adı və müraciət edən şəxs haqqında məlumatlar, həmçinin təxmin edilən yer haqqında məlumatların əldə edilməsi.
2. Uşağın yerini dəqiqləşdirmək üçün Rusiyanın DİN-ə sorğu göndərilməsi, Rusiyanın digər orqanlarına və digər ölkələrə əlavə sorğuların göndərilməsi.
3. Əgər uşaq Rusiyada olarsa, müvəkkil aparatı müvafiq RF subyektinə sorğu göndərir və azyaşlını ziyarət edib məlumatları dəqiqləşdirməyi xahiş edir.
4. RF subyektinin səlahiyyətli orqanları ilə mövqe və sənədlər siyahısının razılaşdırılması.
5. Qovuşma üçün hüquqi əsasları təsdiqləyən zəruri sənədlərin Ukraynadan tələb edilməsi.
6. Ukrayna tərəfi ilə transfer detalları razılaşdırılır; lazım gəldikdə Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə əməkdaşlıq edilir.

Qovuşma prosesində müvəkkil aparatı sənədlərin tərcüməsi və notarial təsdiqi, nəqliyyat xərcləri, oteldə yerləşmə, qida və mobil rabitə ilə təmin etmə, qohumluğu sənədlə təsdiqləmək mümkün olmadıqda DNT analizində kömək edir.

Müvəkkil aparatının Ukrayna tərəfi ilə əməkdaşlığı çərçivəsində ailələrin qovuşması üçün Rusiyaya girişi ən çox Rusiya-Latviya və Rusiya-Estoniya sərhədləri vasitəsilə həyata keçirilir. Giriş həmçinin Belarusiya üzərindən də birbaşa Ukraynaya mümkündür. Uşaqları qohumları və ya etibarlı şəxslər gətirə bilər. Son vaxtlarda qovuşma alqoritmini sadələşdirmək mümkün olmuşdur: 2024-cü ilin fevralından etibarən ailələr Moskvada qovuşur, bu da valideynlərin, qanuni nümayəndələrin və müşayiət edən şəxslərin marşrutunu təxminən bir həftə qısaldır. Rusiyanın paytaxtından onlar artıq uşaqlarla birlikdə Minskə, oradan isə Ukrayna və digər ölkələrə gedirlər.

**2024-cü il iyunun 19-na olan məlumata görə, müvəkkil aparatının birbaşa iştirakı ilə 52 ailədən olan 70 uşaq Ukraynada və digər ölkələrdə yaşayan qohumlarına qovuşmuşdur. Bu rəqəmlər 2022-ci ilin payızında valideynlərinin öz qərarı ilə Rusiyanın cənubundakı sanatoriyalara istirahətə göndərilən Xerson, Zaporojye, Xarkov vilayətlərindən olan uşaqlar haqqında məlumatları əhatə etmir (bax: "RF Prezidentinin yanında Uşaq Hüquqları üzrə Müvəkkilin Krım Respublikası və Krasnodar diyarında istirahətə göndərilən uşaqlar və onların valideynləri ilə qovuşması").**

**Misal 1:** 31 yanvar 2023-cü il tarixində Ukrayna sakini Ryazan vilayətində sosial-reabilitasiya mərkəzində yaşayan iki kiçik bacısı ilə qovuşdu. Daha əvvəl qızlar anası ilə birlikdə döyüş bölgəsindən Rusiyaya təxliyə edilmiş və müvəqqəti yerləşdirmə məntəqəsində yaşamışdılar. Ana ağır xəstələnib və vəfat etmişdir. Volın vilayətində yaşayan böyük bacı qızları öz himayəsinə götürmək istədi. Qadın müvəkkil aparatına müraciət etdi.

Aparat əməkdaşları ona lazım olan sənədlərin toplanması ilə bağlı məsləhət verdilər, qəyyumluq orqanları ilə əlaqələrin qurulmasına kömək etdilər və Moskvadan Ryazana müşayiət təşkil etdilər, burada üç bacı qovuşdu. Sonradan könüllülərin köməyi ilə ailə Ukraynaya qayıtdı.

**Misal 2:** Ukraynalı, beş azyaşlı uşağı olan bir ana, XHƏ başlamasından bir neçə ay əvvəl işləmək üçün Ukraynadan ayrıldı, nəticədə uşaqlar müvəqqəti olaraq müəssisəyə yerləşdirildi. Ukrayna hakimiyyət orqanlarının əmri ilə yerli əhali üçün artan təhlükə səbəbindən uşaqlar Ukraynanın himayəsinə verildi. Daha sonra qəyyum və uşaqlar könüllü olaraq Rusiya Federasiyasına köçmək qərarına gəldilər. Ana uşaqları ilə qovuşmaq istəyərək qəyyumluq orqanları və müvəkkil aparatı ilə əlaqə saxladı. Könüllülər ona Moskvaya bilet aldılar, müvəkkil aparatı isə uşaqların olduğu yerə qədər nəqliyyatla təmin etdi və onu müvəkkil aparatının əməkdaşları müşayiət etdilər. Ailə 2023-cü ilin yanvar ayında uğurla bir araya gələrək bir-birinə qovuşdu.

**Misal 3:** İki uşağın valideynləri bir neçə il müxtəlif ölkələrdə yaşayırdılar: ata Ukraynada, ana isə Rusiyada. Uşaqlar anası ilə birlikdə yaşayırdılar, lakin o, ağır xəstələnərək 2022-ci ilin noyabr ayında vəfat etdi və uşaqların gələcəkdə harada yaşayacağı sualı ortaya çıxdı. Onları həm Kursk vilayətində yaşayan nənələri, həm də Kiyevdə yaşayan ataları qəbul etməyə hazır idi. Ata uşaqların olduğu yerin qəyyumluq və himayəçilik orqanlarına müvafiq ərizə göndərdi və uşaqları Kiyevə aparmaq üçün anasına etibarnamə verdi. Ailə 2022-ci ilin noyabr ayının sonunda bir-birinə qovuşdu.

**Misal 4:** 2022-ci ilin mart ayının əvvəlində bir qız Rusiyaya doğma xalası ilə gəldi. Anası və nənəsi bundan xəbərdar idi və onunla əlaqə saxlayırdılar. Bir sıra amillər nəticəsində qız sosial-reabilitasiya mərkəzinə düşdü və müxtəlif hüquqi məhdudiyyətlərə səbəb olan xoşagəlməz bir hadisə yaşadı, bu məhdudiyyətlərin həlli vaxt tələb edirdi.

2023-cü ilin aprel ayında BMT Təhlükəsizlik Şurasının tribunasında qızın anası Nina Vlasova uşağın Rusiyada saxlanıldığını bəyan etdi. O, Ukrayna silahlı qüvvələri ilə əlaqəli olduğu üçün özü qızını götürməyə gələ bilmirdi.

Uşaq Hüquqları üzrə Müvəkkil Aparatı bu işlə ananın çıxışından əvvəl məşğul olmağa başladı. 26 aprel tarixində Lipetsk vilayətində Uşaq Hüquqları üzrə Müvəkkil Aparatının əməkdaşı qızla görüşdü. Artıq 3 may tarixində Mariya Lvova-Belovanın müşaviri qızın anası ilə əlaqə saxlayaraq evə qayıtma detalları barədə razılaşdı.

Qızı götürməyə doğma nənəsi gəldi. Müvəkkil Aparatı onu otellə və Lipetsk vilayətinə transferlə, bütün lazımi sənədlərin tərcüməsi ilə, sonradan Rusiya-Latviya sərhədinə köçürülməsi ilə təmin etdi. Qadını federal müvəkkil aparatının əməkdaşı və Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndəsi müşayiət etdilər. RF Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkil qıza yeni telefon hədiyyə etdi. May ayında qız nənəsi ilə birlikdə Ukraynaya qayıtdı.

**Misal 5:** 2023-cü ilin iyul ayında RF Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkil Aparatı Donetsk şəhərindən olan nənə və onun 12 və 5 yaşlı iki nəvəsini Ukraynaya, uşaqların anasının yanına getməsinə kömək etdi. Ukrayna tərəfi bu köməyin göstərilməsini xahiş etdi. Müvəkkil aparatının əməkdaşları təhlükəsiz marşrutu detallı şəkildə işləyib hazırladılar: Rusiyanın bir neçə regionundan keçməklə, sonra Belarusiya və Ukraynaya. Yolun hər mərhələsində regional uşaq hüquqları üzrə müvəkkillər kömək göstərirdilər: qarşılayırdılar, yolda müşayiət edirdilər, otelə və qatar stansiyasına aparırdılar. Beynəlxalq Qırmızı Xaç Komitəsi Rusiya və Belarusiya üzrə nəqliyyat dəstəyi göstərdi və yaşayış xərclərini ödədilər.

**Misal 6:** 2023-cü ilin sentyabr ayında federal müvəkkil aparatı 15 yaşlı yeniyetmənin anası ilə qovuşmasına kömək etdi. Oğlan XHƏ başlanandan sonra atası ilə birlikdə Rusiyaya gəldi, onlar ölkənin cənubunda yaşayırdılar, lakin uşaq anası, doğma məktəbi, Ukraynadakı sinif yoldaşları üçün çox darıxırdı. Anası Nikolaev vilayətindən oğlunu evə aparmaq qərarına gəldi. Uşaq ombudsmanının aparatı bütün mərhələlərdə kömək etdi: lazımi sənədlərin hazırlanması üçün Ukrayna tərəfi ilə əlaqə saxladı, qadına logistik məsələlərdə kömək etdi, qismən yol və yaşayış xərclərini ödədi. Öz töhfələrini Krasnodar diyarı, Leninqrad və Smolensk vilayətlərindəki uşaq ombudsmanları, həmçinin Beynəlxalq Qırmızı Xaç Komitəsi də verdilər.

**Uşağın ailədə, yaxınları ilə, xüsusən də qan qohumları ilə qalması uşaq hüquqları üzrə müvəkkillərin institutunun prioriteti olmuş və qalmaqdadır.**

Müvəkkil regionlardakı vəziyyəti monitorinq edir və zərurət yarandıqda ailələrin qovuşması üçün operativ tədbirlər görür (bütün ailələrə əlavə kömək lazım deyil). Rusiyada olan uşağın axtarışı üçün vətəndaşlar müvəkkil aparatına elektron poçt ünvanı ilə müraciət edə bilərlər: obr@deti.gov.ru və ya deti.gov.ru saytındakı forma vasitəsilə, həmçinin Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə əlaqə saxlamaq olar: +7 800 234 07 07, rfl@redcross.ru.

Bundan əlavə, müvəkkil aparatına Rusiyada yaşayan valideynlər və yaxın qohumlardan müraciətlər daxil olur, onlar Ukrayna ərazisində olan uşaqları ilə qovuşmağa çalışırlar.

Ümumilikdə RF Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkilin iştirakı ilə beş ailədən olan doqquz uşaq Rusiyada yaşayan yaxınları ilə qovuşmuşdur.

**Misal 1:** 11 oktyabr 2023-cü ildə müvəkkil aparatı və Ukrayna tərəfinin dəstəyi ilə ananın qızı ilə qovuşması baş tutdu, qız Ukraynadakı sosial-reabilitasiya mərkəzində yaşayırdı. Qız nəzarətsizliyin qarşısının alınması sisteminin Ukrayna orqanları tərəfindən valideyn vəzifələrini yerinə yetirə bilməyən atadan alınmışdır.

**Misal 2:** 2023-cü ilin dekabr ayında uşaq ombudsmanı aparatı 9 və 17 yaşlı iki qardaş və 12 yaşlı bacının Ukraynadan valideynlərinin yanına, Rusiyaya qayıtmasına kömək etdi. Onları nənələri müşayiət edirdi, uşaqlar ailə vəziyyətinə görə 2021-ci ilin sonundan Ukraynada nənələri ilə yaşayırdılar.

Valideynlər uşaqları evlərinə qaytarmaq üçün bir neçə dəfə cəhd ediblər, o cümlədən könüllülərin köməyi ilə bunu etməyə çalışıblar. Lakin uşaqların lazımi sənədləri olmadığı üçün bu mümkün olmayıb. 2023-cü ilin iyul ayında ata Belqorod vilayətində uşaq ombudsmanı Qalina Pyatıxa müraciət edib. Nəticədə Qətər Dövlətinin vasitəçiliyi ilə Ukrayna tərəfi ilə dialoq zamanı uşaqların nənənin müşayiəti ilə Rusiyaya qayıtması barədə razılıq əldə olunub. Rusiyanın FTX Sərhəd Xidməti, RF Müdafiə Nazirliyi və Belqorod vilayətinin hakimiyyəti kömək göstərdilər.

**Misal 3:** 2024-cü ilin mart ayında 14 yaşlı yeniyetmənin Ukraynadan Rusiyaya köçməsinə kömək göstərildi. Burada onu altı ildən çox görmədiyi nənəsi və doğma böyük bacısı gözləyirdilər. Oğlanın valideynləri vəfat etmişdi, son bir il yarımı o, əmisi ilə yaşayırdı. Nənə bütün bu müddət ərzində nəvəsi ilə qovuşmaq yollarını axtarırdı və uşaq ombudsmanına müraciət etdi. Onların qovuşmasından əvvəl Qətər Dövlətinin vasitəçilik missiyası sayəsində Ukrayna tərəfi ilə aktiv danışıqlar aparıldı.

**Misal 4:** 2024-cü ilin may ayının sonunda Müvəkkil Aparatına Vətən Müdafiəçilərinin Ailələri Komitəsindən üç uşağı – iki yeniyetmə oğlan və kiçik qızı olan bir qadına Rusiyaya qayıtmağa kömək etmək xahişi ilə müraciət daxil oldu. 2021-ci ildə onlar nənələrinə baş çəkmək üçün Ukraynaya getmişdilər, lakin geri dönə bilmədilər. Əvvəlcə COVID məhdudiyyətləri mane oldu, sonra isə xüsusi hərbi əməliyyat başladı.

Ukraynanın Miqrasiya Xidməti qadının xarici pasportuna 8 iyun 2024-cü ilə qədər ölkəni tərk etmək barədə qeyd qoydu. Ailə Moldovadan keçə bilərdi, lakin qızın bunun üçün lazım olan sənədləri yox idi.

Qətər Dövlətinin vasitəçiliyi sayəsində Ukrayna tərəfi ilə ailənin Rusiyaya qayıtması barədə razılığa gəlinib. Alternativ transfer yolu razılaşdırılıb. Beynəlxalq Qırmızı Xaç Komitəsi əlavə kömək göstərdi. Ailə Başqırdıstana doğmalarının yanına qayıtdı.

**Qovuşma hallarının tipologiyası:**

1. Valideynləri və qan qohumları ilə RF ərazisində yaşayırdılar, valideynləri və ya digər qan qohumları ilə Ukrayna ərazisində qovuşdular (29 uşaq).

2. Ukraynadan RF ərazisinə uşaqlarla gələn qeyri-qohum qəyyumla yaşayırdılar, Ukraynadan gəlib uşaqları qəbul edərək RF ərazisində qalmaq qərarına gələn anaları ilə qovuşdular (5 uşaq).

3. RF ərazisində yaxın ailə tanışları olan qeyri-qohum qəyyumlarla yaşayırdılar, valideynləri və ya digər qan qohumları ilə Ukrayna ərazisində qovuşdular (6 uşaq).

4. RF ərazisində ailə tanışı olan qeyri-qohum qəyyumlarla yaşayırdılar, valideynləri və ya digər qan qohumları ilə Ukrayna ərazisində qovuşdular (1 uşaq).

5. RF ərazisində müəssisələrdə idilər, valideynləri və ya digər qan qohumları ilə Ukrayna ərazisində qovuşdular (29 uşaq).

## RF Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkilin Krım Respublikası və Krasnodar diyarında istirahətə göndərilən uşaqlar və onların valideynləri ilə qovuşmasına kömək

2023-cü ilin yanvar ayında müvəkkil Krım Respublikası və Krasnodar diyarında istirahətə göndərilən uşaqlar və onların valideynləri (qanuni nümayəndələri) olan Ukrayna vətəndaşlarının qovuşması ilə bağlı regional hakimiyyət orqanlarından və açıq mənbələrdən gələn məlumatlara cavab verdi. Müvəkkil ailələrin qovuşma prosesinə qoşulmaq qərarına gəldi.

2022-ci ilin yayının sonu-payızında cəbhə xəttindəki vəziyyətlə əlaqədar olaraq, Xerson, Zaporojye, Xarkov vilayətləri və digər ərazilərdən olan valideynlər uşaqları könüllü olaraq istirahətə, o cümlədən hərbi əməliyyatlardan qorunmaq üçün göndərdilər. Onları müşayiət edən şəxslərlə birlikdə valideynlərin etibarnamələri ilə Krım və Krasnodar diyarının sanatoriyaları və sağlamlıq düşərgələri qəbul etdilər.

Cəbhə xəttindəki vəziyyət hər zaman uşaqların və müşayiət edənlərin dəyişmədən sonra evə təhlükəsiz yolunu təşkil etməyə imkan vermirdi. Buna görə də uşaqların geri qayıtması vaxt tələb edirdi.

Cəbhə xəttindən yan keçən təhlükəsiz marşrut qonşu dövlətlərdən keçirdi. Valideynlərin uşaqlarını özləri götürə bilməməsi də qovuşma çətinliklərinə səbəb oldu. Çağırış yaşında olan ataları Ukrayna hakimiyyəti buraxmırdı, anaların yanında digər uşaqlar var idi, valideynlərin sağlamlıq vəziyyəti mane olurdu. Uşaqları götürə biləcək etibarlı şəxsi və səfər üçün lazım olan vəsaitləri tapmaq hamıya müyəssər olmurdu. Həm Rusiyada, həm də Ukraynada və Aİ ölkələrində yaşayan ailələrə Rusiya və Ukrayna könüllüləri kömək edirdilər.

Müvəkkil aparatının əməkdaşları Krımdakı uşaqları şəxsən ziyarət edərək, digərlərindən daha çox müddətə qalanlar üçün əlavə tədbirlər gördülər. Hər bir uşaq üçün fəaliyyət planı hazırlandı. Krımdakı qrupdan olan iki uşaq üçün Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələri ilə valideynlərinin Aİ ölkələrində yaşayanların axtarışına kömək etmək barədə müzakirələr aparıldı.

Ailələrin qovuşmasında Rusiya və Ukraynanın könüllü təşkilatları fəal rol oynadılar. Sonuncular birbaşa Rusiyanın hakimiyyət orqanlarına və müvəkkil aparatına müraciət etməkdən çəkinirdilər.

Müvəkkilin səyləri nəticəsində bu günə qədər Krasnodar diyarında istirahət edən və geri qayıtmaqda gecikən bütün Ukrayna vətəndaşlarının uşaqları ailələri ilə qovuşmuşdur.

Krım Respublikasında valideynlərin istirahətə göndərdiyi 2350 uşaqdan 2023-cü il aprelin 3-nə 38 uşaq, aprelin 19-na altı uşaq, mayın 29-na üç uşaq qalmışdı. Valideynlər uşaqların hələlik yarımadada qalmasının daha yaxşı olacağına qərar verdilər. Nəticədə iki uşaq sentyabr ayında valideynləri tərəfindən götürüldü və 2023-cü il oktyabrın 1-nə Krımda yalnız bir 17 yaşlı yeniyetmə valideynlərinin qərarı ilə qaldı. Oğlan artıq yetkinlik yaşına çatıb və Rusiyada ali təhsil alır.

## Baxımsız uşaqların hüquqlarının qorunması

2022-ci ilin yazı boyunca Rusiya hərbçiləri Mariupolda baxımsız qalan uşaqları aşkar edərək şəhərin sosial xidmətlərinə təhvil verirdilər. Daha sonra uşaqlar valideyn himayəsindən məhrum olunmuş kimi Donetskdəki uşaq sosial mərkəzinə yerləşdirildilər. May ayında 31 uşaqdan ibarət qrup qanuni nümayəndə, uşaq sosial mərkəzinin rəhbərinin razılığı ilə Moskva vilayətindəki sanatoriyaya sağlamlaşdırma üçün göndərildi.

Sağlamlaşdırma kursu başa çatdıqdan sonra DXR-in qəyyumluq və himayəçilik orqanları Moskva vilayətinin qəyyumluq və himayəçilik orqanlarına uşaqların Rusiya vətəndaşlarının ailələrinə ilkin qəyyumluğa verilməsi üçün müraciət etdilər.

**31 uşaqdan ibarət qrupdan:**

- 3 uşaq atalarının müraciəti ilə könüllü təşkilat vasitəsilə müvəkkilə müraciətdən bir gün sonra atalarına təhvil verildi;
- 6 uşaq öz istəkləri ilə ailə mərkəzlərinə yerləşdirildi, onların demək olar ki, hamısı sonradan qəyyum ailələrə verilməsini istədi;
- 22 uşaq Moskva vilayətinin sakinlərinə ilkin qəyyumluğa verildi. Daha sonra bir qız qonşusuna, DXR-dəki ailəsinin yanında yaşayan bir şəxsə qəyyumluğa verildi.

Qəyyum ailələrə yerləşdirilməyə hazır olan digər 28 uşaqla yanaşı, qohumlarının və ya yaxın tanışlarının ailələrinə qayıtmaq imkanları da müzakirə olunurdu. Bundan əlavə, uşaqlara Ukrayna tərəfinin onların qayıtmasına maraqlı olduğu barədə məlumat verildi. Bir çox uşaq, şəhərdə təhlükəsizlik olmadığı üçün Donetskə qayıtmaq istəmədiklərini bildirdi. Bəziləri hərbi əməliyyatlar bitdikdən sonra qayıtmağa hazır olduqlarını bildirdilər. Qayıtmaq istəyənlərə geri qayıtmaqda köməklik göstərildi.

**2023-cü ilin noyabr ayında 31 uşaqdan ibarət qrupda olan Boqdan Yermoxinin Ukraynada olan əmisi qızı ilə qovuşmasına kömək göstərildi, çünki bunu yeniyetmənin özü istədi. Rusiyada o, öz istəyi ilə qəyyum ailədə yaşayırdı. Minskə qədər onu etibarlı şəxslər müşayiət etdilər, orada o, qohumu ilə görüşdü. Sərhədlərin təhlükəsiz keçməsi və ailənin qovuşması üçün müvəkkil institutu Ukrayna tərəfi, Rusiya Federasiyasının İnsan Hüquqları üzrə Müvəkkili Tatyana Moskalkova və Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə təfərrüatları diqqətlə işləyib hazırladı. Həmçinin Papa Fransiskin nümayəndəsi kardinal Matteo Dzuppi və Rusiya Federasiyasındakı Apostol Nunsiaturası nümayəndələri dəstək verdilər.**

Bu günə qədər 27 uşaqdan 12-si yetkinlik yaşına çatıb, ikisi Ukraynaya köçüb, digərləri öz qərarları ilə Rusiyada yaşamağa davam edirlər.

2022-ci ilin payızında Rusiya hərbçiləri Kupyansk, Xarkov vilayətindəki xüsusi təhsil məktəb-internatının zirzəmilərində olan və atəş altından çıxarılan 13 uşağı tapdılar.

Uşaqlar müəllimlərsiz və tərbiyəçilərsiz idi, yalnız üç uşağın sənədləri var idi. Digər uşaqların məlumatları isə onların öz dillərindən qeyd olunmuşdu.

İnternat məktəbinin administrasiyası və LXR DİN əməkdaşları qalan uşaqların valideynlərini və digər qanuni nümayəndələrini axtarmağa başladılar. Federal müvəkkilш aparatı və Luqansk Xalq Respublikasında Uşaq Hüquqları üzrə Müvəkkil İnna Şvenk də işə qoşuldu.

Bəzi qohumları tez tapmaq mümkün oldu: noyabr ayında bir yetirmə anasına təhvil verildi, dekabr ayında bir oğlan və bir qız nənələrinə, yanvar ayında dörd qardaş və bacı atalarına, mart ayında isə daha bir oğlan anasına verildi.

**2023-cü ilin may ayında Kupyansk internat məktəbindən çıxarılan bir oğlanla Ukraynadan gələn anası qovuşdu. Könüllülərin müraciətindən sonra müvəkkil aparatı logistikaya kömək etdi, aviabilet və qatar biletləri aldı, otel ilə təmin etdi. Həmçinin, ailəyə müxtəlif mərhələlərdə Rostov vilayətində və LXR-də Uşaq Hüquqları üzrə Müvəkkillər və Beynəlxalq Qırmızı Xaç Komitəsinin əməkdaşları müşayiət etdilər.**

2023-cü ilin iyun ayında bir qardaş və bacı anaları tərəfindən götürüldü. Bu qrupun sonuncu uşaqları, həmçinin qardaş və bacı, bu ilin sentyabr ayının əvvəlində anaları ilə qovuşdular. Bu günə qədər Kupyansk xüsusi təhsil internat məktəbindən olan bütün uşaqlar ailələri ilə birlikdədirlər.

## Valideyn himayəsindən məhrum olmuş uşaqların Rusiya vətəndaşlarının ailələrinə qəyyumluğa verilməsi

**2022-ci ilin aprel-oktyabr aylarında DXR və LXR-dən olan 380 yetim və valideyn himayəsindən məhrum olmuş uşaq Rusiya Federasiyasının 19 regionundan olan qəyyum ailələrə yerləşdirildi.**

Uşaqların əksəriyyəti uzun müddət respublika uşaq evlərində qalmışdı. Bu uşaqların xeyli qismi qardaş və bacılardan ibarətdir, yəni 3-9 nəfərlik ailə qruplarını təşkil edirlər, bəziləri isə sağlamlıq problemləri ilə üzləşir. Belə uşaqların yerləşdirilməsi ənənəvi olaraq çətindir. Bundan əlavə, DXR və LXR-dəki vəziyyətlə əlaqədar olaraq uşaqları qəbul etməyə hazır olan ailələri tapmaq olduqca çətindir. Valideynləri ilə qovuşma isə yaxın perspektivdə mümkün deyildi, çünki valideynlərin böhran vəziyyəti və valideyn hüquqlarının bərpasının yaxın gələcəkdə mümkün olmaması buna mane olurdu.

Başa düşmək vacibdir ki, DXR və LXR əraziləri uzun illərdir Ukrayna Silahlı Qüvvələri tərəfindən atəşə tutulurdu və bunu respublikaların sosial müəssisələrindəki əksər yetim uşaqlar yaxşı bilir. Uşaqlar Rusiyanı düşmən kimi qəbul etmirlər, ölkəmizdən müdafiə olunacaqları və yardım gözləyirlər, buna görə də, qəyyum ailələrə yerləşdirilmək onlar üçün travmatik bir vəziyyət deyil.

Bütün işlər Donbas respublikalarının rəhbərlərinin və səlahiyyətli orqanlarının xahişi ilə və onların fəal iştirakı ilə aparılırdı. 27 uşaqdan ibarət olan ilk qrup 2022-ci ilin aprel ayında

DXR qəyyumluq və himayə orqanlarının qərarı ilə Moskva vilayətindəki ailələrə müvəqqəti qəyyumluğa verildi.

Uşaqların qəyyum ailələrə yerləşdirilməsinə kömək müvəqqəti və təcili xarakter daşıyırdı: uşaqları atəş altındaт çıxarmaq və onlara ailə mühiti vermək lazım idi. Alternativ olaraq, uşaqların təhlükəsiz bölgələrdəki uşaq müəssisələrinə və ya müvəqqəti yerləşdirmə məntəqələrinə (MYM) yerləşdirilməsi ola bilərdi, lakin bu, müəssisələrdə kollektiv şəkildə qalmaqla əlaqəli əlavə risklər yaradır və dünyanın, o cümlədən Rusiyanın de-institusionalizasiya vektoruna uyğun deyil.

Müvəkkilin təşəbbüsü ilə hazırda müstəqil ekspertlər Ukraynadakı hərbi əməliyyatlardan təsirlənən, o cümlədən qəyyumluğa verilən uşaqların iştirakı ilə tədqiqat aparırlar. Hesabatın 2024-cü ilin payızında təqdim edilməsi planlaşdırılır.

**“Mənim həyatım çox dəyişdi. Əvvəllər, Luqanskda olanda, mən, necə deyim, avara idim. Biz orada oğlanlarla dalaşırdıq. Pis, aqressiv idik. Amma indi bura köçəndən sonra mənim imkanlarım artdı. İdmanla məşğul olmaq imkanım oldu. Yaxşı yaşamaq imkanım oldu. Özümü dəyişdirmək və daha yaxşı olmaq imkanım oldu.”**

**16 yaşlı yeniyetmə**

Ən böyük çətinliklər uşaqların yeni məktəblərə uyğunlaşması zamanı yarandı, xüsusilə də bu, təhsil proqramlarının dəyişməsi ilə bağlı. Uşaqların sözlərinə görə, əvvəlki məktəblərdə bir çox fənlər, demək olar ki, tədris edilmirdi. Həmçinin, internat müəssisələrindəki uşaqlara qiymətlərin şişirdilməsi praktikası ilə rastlaşıldı, bu səbəbdən təhsil müəssisəsinin dəyişdirilməsindən sonra əvvəlki qiymətlərlə uşaqların fənlər üzrə real bilik səviyyələri arasında uyğunsuzluq yarandı.

Eyni zamanda, RF Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkil Mariya Lvova-Belovanın XHƏ zamanı uşaqların müdafiəsi üzrə fəaliyyəti maksimal dərəcədə şəffafdır.

Bu iş haqqında məlumatı İnternetdə rəsmi uşaq ombudsmanı saytından (deti.gov.ru), müvəkkilin şəxsi səhifələrindən və “Vkontakte” və Telegram sosial şəbəkələrində “Uşaq hüquqları müdafiəçisi” icmalarından asanlıqla əldə etmək olar. Bundan əlavə, müvəkkil daimi olaraq mətbuat konfransları, müsahibələr və Rusiya və xarici KİV-lər üçün şərhlər verir.

Belə ki, Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin mətbuat mərkəzində müvəkkilin iki mətbuat konfransı (2022-ci ilin aprel və oktyabr aylarında) keçirilib, burada Mariya Lvova-Belova görülən işlər barədə ətraflı məlumat verib, əsasən xarici jurnalistlərin suallarını cavablandırıb. Tədbirlər həm əyani, həm də onlayn rejimdə keçirilib. Bu cür üçüncü mətbuat konfransının 2024-cü ilin iyununda keçirilməsi planlaşdırılır.

Bundan əlavə, 2023-cü ildə müvəkkil bir sıra xarici KİV-lərə eksklüziv müsahibələr verib və çəkilişlərdə iştirak edib. Onlar arasında Amerika xəbər kanalı Vice News, Yaponiyanın NHK telekanalı, İtaliyanın RAI telekanalı, İspaniyanın El País qəzeti, İsveçrənin Weltwoche jurnalı, İspaniyanın 100 Giorni da Leoni videobloqu, Kolumbiyanın W Radio radiostansiyası, Böyük Britaniyanın ITV telekanalı var.

Müsahibələrdə əsasən eyni suallar səsləndirilib. Qeyd etmək vacibdir ki, bəzi nəşrlərdə yenidən yanlış anlayışlardan – “övladlığa götürmə” və “deportasiya” istifadə olunub.

**2023-cü ilin noyabr ayında xarici jurnalistlər üçün 12-ci “Sabah” növbəsinə mətbuat turu təşkil edilib. Yeni regionlardan olan uşaqların necə istirahət etdiklərini görmək və onlarla ünsiyyət qurmaq üçün Amerika ABC News telekanalının, İtaliyanın La Repubblica qəzetinin, Finlandiyanın “Helsingin Sanomat” qəzetinin, Yaponiyanın “Sankei Shimbun” qəzetinin jurnalistləri gəlib.**

XHƏ zamanı uşaqların müdafiəsi ilə bağlı Ukrayna və onun tərəfdarları tərəfindən yaradılmış əsas feyklər bunlardır:

### Feyk № 1: “Rusiya uşaqları deportasiya edir və çıxarır”

Bu belə deyil. 2022-ci ilin fevral ayından etibarən Rusiya Federasiyası Ukraynadan və Donbas respublikalarından təxminən 4,8 milyon sakin qəbul edib, onlardan 700 mindən çoxu uşaqdır. Uşaqların əksəriyyəti valideynləri və ya yaxın qohumları ilə birlikdə Rusiyanın təhlükəsiz bölgələrinə gəliblər. Donbasın uşaq sosial müəssisələri öz yetirmələrinə təhlükəsizlik təmin etmək üçün atəş altından çıxıblar.

### Feyk № 2: «Rusiyanın uşaqların övladlığa götürülməsi proqramı var»

Rusiya Federasiyasında XHƏ zonalarından uşaqların övladlığa götürülməsi proqramı yoxdur. Minlərlə uşağın övladlığa götürülməsi haqqında məlumatlar etibarsızdır. RF Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkilin dəstəyi ilə 2022-ci ilin aprel-oktyabr aylarında rus ailələrinə 380 yetim və valideyn himayəsindən məhrum olmuş uşaq, böyük ailə qrupları və əlilliyi olan uşaqlar qəyyumluğa verilib. Uşaq Hüquqları üzrə Müvəkkil aparatının məlumatına görə, DXR və LXR-dən olan uşaqların övladlığa götürülməsi, bu respublikalar suveren dövlətlər olduqda həyata keçirilməyib.

Ətraflı məlumat üçün «Valideyn himayəsindən məhrum olmuş uşaqların rus vətəndaşlarının ailələrinə qəyyumluğa verilməsi» bölməsinə baxın.

### Feyk № 3: «Rusiya Ukraynadan olan uşaqları geri qaytarmır»

Biz XHƏ-nin başlanmasından bəri müxtəlif səbəblərə görə ayrılmış ailələrin qovuşması ilə ardıcıl və açıq şəkildə məşğul oluruq. Bizə daxil olan müraciətləri operativ şəkildə işləyirik: lazım olduqda uşağın axtarışında köməklik göstəririk, baxmayaraq ki, çox vaxt uşaqlar yaxın qohumları ilə birlikdədir və onların yeri valideynlərə məlumdur. Sənədlərin hazırlanmasında köməklik göstəririk. Rusiyanın ərazisində ananı, nənəni və ya digər yaxın adamı müşayiət edirik, tez-tez otel və nəqliyyat xərclərini ödəyirik, görüş təşkil edirik. Bu fəaliyyətləri Beynəlxalq Qırmızı Xaç Komitəsi, Qətər Dövləti və Vatikan ilə əməkdaşlıqda həyata keçiririk.

Bundan əlavə, diqqətə çatdırırıq ki, bir çox ailələr könüllü təşkilatların köməyi ilə müstəqil şəkildə qovuşur. Ətraflı məlumat üçün “RF Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkilin ailələrin qovuşmasına kömək etməsi” bölməsinə baxın.

### Feyk № 4: “Rusiya uşaqların qaytarılması ilə bağlı Ukrayna tərəfi ilə əməkdaşlıq etmir”

Rusiyanın Ukrayna tərəfi ilə qarşılıqlı əlaqə üçün işçi kanalı var ki, bu da fərdi sorğuları işləməyə imkan verir. Zəruri sənədlər, məlumatlar Qətərin, bəzi məsələlərdə Vatikanın vasitəçiliyi

ilə mübadilə olunur və ailələrin qovuşma prosesi koordinasiya edilir. Uşaqlar həm Rusiya, həm də Ukrayna ərazisində ola bilərlər. Ətraflı məlumat üçün “RF Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkilin ailələrin qovuşmasına kömək etməsi” bölməsinə baxın.

**Feyk № 5: “XHƏ zonalarından olan uşaqları rus vətəndaşlığına keçməyə məcbur edirlər”**

Dörd yeni subyekt RF-nin tərkibinə daxil olduqdan sonra, onların sakinləri, o cümlədən yetkinlik yaşına çatmayanlar, Rusiya vətəndaşı olaraq tanınıblar və Rusiya pasportlarını rəsmiləşdirmək imkanı əldə ediblər. 14-18 yaş arası uşaqlar qərarı müstəqil şəkildə qəbul edirlər. 14 yaşa qədər uşaqlar üçün isə ərizəni onların qanuni nümayəndələri – valideynlər və ya qəyyumlar təqdim edirlər. Yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün qanuni nümayəndələr onların tərbiyə olunduğu sosial müəssisələrin rəhbərləridir.

RF-nın yeni vətəndaşları həmçinin əvvəlki Ukrayna vətəndaşlığını da saxlayırlar, əgər onlar buna sahib idilər və ondan çıxmaq istəmədiklərini bildirməyiblər. Beləliklə, vətəndaşlığın dəyişdirilməsindən söhbət getmir.

RF tərkibinə daxil olmazdan əvvəl DXR və LXR müstəqil dövlətlər idi. Respublikalar yarandıqdan sonra orada doğulan uşaqlar müvafiq olaraq DXR və LXR vətəndaşlığı alırdılar. 2014-cü il aprelin 7-dək doğulan uşaqların əksəriyyəti Ukrayna vətəndaşlığına malik idi.

Referendumlar keçməmişdən əvvəl DXR, LXR (2019-cu ildən), Zaporojye və Xerson vilayətlərinin (2022-ci ilin mayından) sakinləri və onların yetkinlik yaşına çatmayan uşaqları sadələşdirilmiş qaydada Rusiya vətəndaşlığına qəbul edilə bilirdilər ki, bu da onlara RF vətəndaşlarına təqdim olunan hüquq və zəmanətləri, o cümlədən sosial ödənişləri almağa imkan verirdi.

Sadələşdirilmiş qaydada vətəndaşlığa qəbul proseduru uşaqların hüquqlarını məhdudlaşdırmır. Rusiya vətəndaşlığı Federal və regional qanunvericiliklə nəzərdə tutulmuş sosial dəstək tədbirlərini almağa, RF ərazisində təhsil müəssisələrinə qəbul kimi yeni imkanlara daha tez çıxış əldə etməyə imkan verir.

Vətəndaşlıq almadan ailələr və yetim uşaqlar yalnız məhdud sayda sosial təminatlara iddia edə bilərlər. Uşaqlar yetkinlik yaşına (18 yaş) çatdıqda onlar müstəqil olaraq Rusiya vətəndaşı olaraq qalmaq istədiklərinə qərar verə biləcəklər. Hazırda, ailələrdən aldığımız məlumatlara görə, insanlar Ukraynaya qayıtmaq istəyirlərsə, Rusiya vətəndaşlığından imtina etməlidirlər.

**Feyk № 6: “RF-də XHƏ zonalarından olan uşaqlar üçün yenidən tərbiyə düşərgələri fəaliyyət göstərir. Bu düşərgələrdə uşaqlar üçün hərbi hazırlıq təşkil olunur”**

Rusiyada, o cümlədən XHƏ zonasından olan uşaqlar üçün yenidən tərbiyə düşərgələri yoxdur.

Uşaqların sağlamlıq mərkəzləri və düşərgələrində istirahət forması ölkədə populyardır və artıq 100 ildir inkişaf edir, bu müddət ərzində geniş infrastruktur yaradılmışdır. Bu növ istirahətin XHƏ zonalarından olan uşaqları da əhatə etməsi məntiqidir.

Bir qayda olaraq, düşərgə növbələrinin proqramı yalnız rekreasiya və sağlamlaşdırma deyil, həm də təhsil və inkişaf tədbirlərini nəzərdə tutur. 2022-ci ilin noyabr ayında müvəkkilin və Çeçenistan Respublikası rəhbərinin təşəbbüsü ilə qanunla münaqişədə olan yeniyetmələr üçün yeni formatda düşərgə növbəsi keçirildi. Növbənin məzmunu idman-vətənpərvərlik mövzusunda idi. Format, hüquq-mühafizə orqanlarının profilaktik nəzarətində olan yetkinlik yaşına çatmayan oğlanların sosiallaşmasına yönəlib. Onun iştirakçıları RF-nin 15 regionundan olan 192 nəfər oldu. Onların arasında DXR-dən 30 və LXR-dən 15 yeniyetmə var idi ki, hamısı valideynlərinin razılığı ilə gəlmişdilər. Ailələr prorusiya mövqeyi tuturlar və uşaqlarının vətənpərvərlik tərbiyəsi ilə maraqlanırlar.

2022-ci ilin avqust ayından etibarən müvəkkilin təşəbbüsü ilə XHƏ-dən təsirlənmiş ərazilərdən olan yeniyetmələr üçün “Sabah” reabilitasiya növbələri keçirilir. Əvvəlcə onun iştirakçıları DXR-dən olan uşaqlar idi, sonradan LXR, Zaporojye və Xerson vilayətlərindən, 2023-cü ildən isə Belqorod, Bryansk və Kursk vilayətlərindən və digər regionlardan iştirakçılar əlavə olundu. “Sabah” növbələrinin formatı uşaqlara keçirdikləri stresdən sonra bərpa olunmağa, yeni şəraitə uyğunlaşmağa və öz gələcəklərini qurmaq üçün imkanlar tapmağa kömək etməkdir. İstirahətdən sonra uşaqlar evlərinə, yaxınlarının yanına qayıdırlar. Ətraflı məlumat üçün “Sabah” növbələri bölməsinə baxın.

**Feyk № 7: “Beynəlxalq Cinayət Məhkəməsinin orderi Rusiyanın ailələrin qovuşması üzrə tədbirlərini aktivləşdirdi”**

Bu tezis həqiqətə uyğun deyil. Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Rusiya Prezidenti Vladimir Putin və RF Prezidentinin yanında Uşaq Hüquqları üzrə Müvəkkil Mariya Lvova-Belovaya qarşı orderindən əvvəl də uşaq ombudsmanı aparatı ailələrin qovuşması ilə məşğul idi. BCM-nin orderi əksinə, yalnız dezinformasiya axınını gücləndirdi və lazımsız maneələr yaradan gərginlik yaratdı ki, bu da uşaqların və ailələrin maraqlarına uyğun deyil. Öz uşaqları ilə qovuşmaq istəyən valideynlər və qohumlar müvəkkilə və Rusiya hakimiyyətinə müraciət etməkdən qorxurlar, baxmayaraq ki, uşaq ombudsmanı aparatı BCM-nin orderindən əvvəl də uşaqların hüquqlarının müdafiəsi ilə məşğul idi, indi də məşğul olur və gələcəkdə də davam edəcək.

İndiyə qədər RF Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkil BCM-nin konkret olaraq nə ilə ittiham edildiyini və bu ittihamların nəyə əsaslandığını bilmir. BCM-nin nümayəndələri uşaq ombudsmanına və ya onun aparatına müraciət etməyib, heç bir sənəd təqdim olunmayıb və ya sorğu göndərilməyib.

BCM-nin rəsmi bəyanatında istifadə olunan “unlawful deportation of population (children)” (“əhalinin (uşaqların) qanunsuz deportasiyası”) ifadəsi təəccüb doğurur.

Rusiya Federasiyası BCM-nin yurisdiksiyasını tanımır və onun nümayəndələri ölkəmizdə axtarışa verilib. Müvəkkil eyni rejimdə işləməyə davam edir.

**“Crocus City Hall”da terror aktından zərər çəkmiş uşaqların hüquqlarının müdafiəsinə yardım**

“Crocus City Hall”da (Moskva vilayəti) 22 mart 2024-cü ildə baş verən terror aktından dərhal sonra RF Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkil aparatında zərər çəkmiş ailələrə yardım və ünvanlı iş üçün hüquqşünaslardan ibarət operativ qrup yaradıldı. Vəzifələrə təcili humanitar yardım, məsləhətlər və ailələrin müşayiəti daxil idi.

Yeddi zərər çəkmiş uşaqdan beşi Moskva və Moskva vilayətinin xəstəxanalarına yerləşdirilib. Mariya Lvova-Belova Z.A. Başlyayev adına Uşaq Şəhər Kliniki Xəstəxanasında uşaqları ziyarət etdi, baş həkimlə görüşdü və onlara bütün lazımi kömək göstərildiyinə əmin oldu. Hazırda bütün uşaqlar artıq evə buraxılıb, bərpa və reabilitasiya davam edir.

Operativ qrupun işi zamanı “Crocus City Hall”da baş verən faciədən sonra altı ailədən olan doqquz yetim uşaq və bir valideynini itirən altı uşaq barədə məlumat əldə edilib. Hüquqşünaslar qohumlara yetim qalmış uşaqların qəyyumluğunu rəsmiləşdirməkdə kömək etdilər. Uşaqların hamısı yaxşıdır, bütün nənələrə daimi qəyyumluq yenidən rəsmiləşdirilir, tezliklə 18 yaşı tamam olacaq qızdan başqa. Ailələrə valideynlərin ölümü ilə əlaqədar pul vəsaitləri ödənilib, ailə başçısını itirməyə görə pensiyalar təyin edilib. Banklar kreditləri silib, xeyirxah vətəndaşlar tərəfindən xeyriyyə yardımı göstərilib.

Bundan əlavə, zərər çəkmiş qohumların müraciətləri daxil olduqdan sonra müvəkkil aparatının əməkdaşları kompensasiyaların alınması ilə bağlı məsləhətlər verdilər. Terror aktı zamanı valideynləri həlak olmuş kiçik bacısının qəyyumluğunu rəsmiləşdirmək üçün böyük bacıya hüquqi yardım göstərildi. Ailə ilə iş üçün psixoloq cəlb edildi.



Əlavə 1

## RF Prezidenti yanında Uşaq hüquqları üzrə Müvəkkilin iştirakı ilə doğmalarına qovuşmuş (Ukraynada) uşaqlar haqqında məlumat

| № | Uşaq | Uşağın qovuşduğu valideyn yaxud qohum | Beybəlxalq tərəfdaşlar – qovuşma prosesinin iştirakçıları | Əvvəlki dövr və görülmüş tədbirlər | Qovuşma yaxud etibarlı şəxsə verilmə tarixi |
|---|---|---|---|---|---|
| 1 | Oğlan | Ata | | Uşaqların aktiv hərbi əməliyyatlar dövründə DXR ərazisində valideyn himayəsindən məhrum olduqları və sosial müəssisəyə yerləşdirildikləri aşkar edilib. Reabilitasiya üçün Moskva vilayətindəki müəssisəyə göndəriliblər. Uşaqlar tibb mərkəzində ataya təhvil verilib. | 18 iyun 2022 |
| 2 | Qız | | | | |
| 3 | Qız | | | | |
| 4 | Qız | Ata | | Ana 2022-ci ilin avqust ayında vəfat edib. Nənə uşaqların qəyyumu təyin olunub. Ata uşaqların ona verilməsi üçün qəyyumluq və himayə orqanlarına müraciət edib. Görülən işlər nəticəsində uşaqlar Kiyevdəki atalarına göndəriliblər. | 30 noyabr 2022 |
| 5 | Oğlan | | | | |
| 6 | Oğlan | Ana | | 17.10.2022-ci ildə ana əsirlərin və mülki şəxslərin mübadiləsi çərçivəsində Ukrayna tərəfinə təhvil verilib. Valideyn himayəsindən məhrum olan oğlan DXR-də xaç anasına müvəqqəti qəyyumluq altında yerləşdirilib. RF-də İnsan Hüquqları üzrə Müvəkkil ilə birgə aparılan iş nəticəsində oğlan ananın böyük qardaşına verdiyi etibarnamə əsasında anaya təhvil verilib. | 13 dekabr 2022 |
| 7 | Qız | Ana | | Uşaqlar Ukraynadan gəlmiş, qohum olmayan qəyyum ilə RF-də yaşayırdılar. Uşaqların anası müvəkkilə müraciət edərək uşaqların axtarışı və onlarla qovuşması üçün kömək istəmişdi. Uşaqlar anaya təhvil verildikdən sonra qadın RF-də yaşamaq qərarına gəlib. | 14 yanvar 2023 |
| 8 | Qız | | | | |
| 9 | Oğlan | | | | |
| 10 | Oğlan | | | | |
| 11 | Qız | | | | |
| 12 | Qız | Böyük bacı | | Qızlar anaları ilə birlikdə LXR-dən gəliblər. Ryazan vilayətindəki müvəqqəti yerləşdirmə məntəqəsində birlikdə idilər, burada ana 17.12.2022-ci ildə vəfat edib. Qızlar internat müəssisəsinə yerləşdirilib. Görülən iş nəticəsində qızları Ukraynadan gəlmiş böyük bacıları götürüb. | 31 aynvar 2023 |
| 13 | Qız | | | | |
| 14 | Oğlan | Ana | | 2022-ci ilin yazında təmas xəttində hərbi əməliyyatların kəskinləşməsi ilə əlaqədar valideynlərin razılığı ilə uşaq Krasnodar diyarına istirahət və sağalma üçün göndərilib. Ana Ukrayna ərazisində olduğuna və atanın yeri məlum olmadığına görə, müvəkkilin iştirakı ilə oğlan ananın etibarnaməsi ilə Ukraynadan gələn müşayiətçiyə təhvil verilib. Ailə qovuşub. | 21 mart 2023 |
| 15 | Oğlan | Ata | | 2022-ci ilin yazında təmas xəttində hərbi əməliyyatların kəskinləşməsi ilə əlaqədar valideynlərin razılığı ilə uşaq Krasnodar diyarına istirahət və sağalma üçün göndərilib. Ananın yeri məlum deyil. Ata Ukrayna ərazisində yaşayırdı (uşağı götürmək imkanı yox idi). Oğlan atanın etibarnaməsi ilə müşayiətçiyə təhvil verilib. | 21 mart 2023 |
| 16 | Oğlan | Ana | | 2022-ci ilin yazında təmas xəttində hərbi əməliyyatların kəskinləşməsi ilə əlaqədar valideynlərin razılığı ilə uşaq Krasnodar diyarına istirahət və sağalma üçün göndərilib. Ana əlilliyi var (hərəkət qabiliyyəti zəifdir). Nikah pozulub. Ata RF ərazisində idi (başqa ailəsi var idi). Uşaq atanın etibarnaməsi ilə müşayiətçiyə təhvil verilib. Oğlan Ukraynada anası ilə qovuşub. | 21 mart 2023 |

| № | Uşaq | Uşağın qovuşduğu valideyn yaxud qohum | Beybəlxalq tərəfdaşlar – qovuşma prosesinin iştirakçıları | Əvvəlki dövr və görülmüş tədbirlər | Qovuşma yaxud etibarlı şəxsə verilmə tarixi |
|---|---|---|---|---|---|
| 17 | Oğlan | Nənə | | Hələ XHƏ başlamazdan əvvəl oğlan nənəsinin qəyyumluğuna verilib. Daha sonra onun ərizəsi əsasında Xerson vilayətindəki Aleşkinski internat evinə yerləşdirilib. Təmas xətti ilə ayrılan nənə və oğlan bir-birindən ayrıldılar. Müvəkkilin köməyi ilə nənə uşağı müəssisədən götürüb. | 27 mart 2023 |
| 18 | Qız | Ana | Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) | 2022-ci ilin mart ayının əvvəlində qız Ukraynadan Rusiyaya doğma xalası ilə birlikdə gəlib, daha sonra o, sosial-reabilitasiya mərkəzinə yerləşdirilib. Müvəkkil, BQXK ilə birlikdə, nənənin nəvəsi ilə qovuşmasına kömək etdi, Rusiyada köçürülməsində, yaşayış şəraitində köməklik göstərdi və müvəkkil aparatının əməkdaşı onları qızın Ukraynada anası ilə qovuşması üçün Rusiya-Latviya sərhədinə qədər müşayiət etdi. | 19 may 2023 |
| 19 | Oğlan | Ana | | Ana, əvvəllər Kupyansk korreksiya məktəbində oxuyan oğlu ilə qovuşmaq və onu Ukraynaya qaytarmaq üçün kömək istədi. Uşaq Luhansk Xalq Respublikasının ərazisində anaya təhvil verildi. Sonra Ukrayna sərhədinə qədər köç təşkil edildi. | 20 may 2023 |
| 20 | Oğlan | Bacı | | Anasının 2016-cı ildə və atasının 2021-ci ildə vəfatından sonra oğlan nənəsinin qəyyumluğuna verilib. 2022-ci ildə nənəsi vəfat etdikdən sonra müvəqqəti qəyyumluq altında xalası tərəfindən tərbiyə edilib. Müvəqqəti qəyyumluq dövrü bitdikdən sonra xalası tərəfindən Luqansk sosial müəssisəsinə yerləşdirilib. Ukraynadan olan bacısı bu vəziyyəti öyrənərək, oğlanı qəbul etmək istədi. Ailənin qovuşmasına kömək edilib. | 26 may 2023 |
| 21 | Oğlan | Ana | | Qardaş və bacı DXR-də babaları ilə birlikdə idilər. Baba uşaqların Ukraynada anasına verilməsinə etiraz etmədiyini bildirən ərizə yazıb. Uşaqlar Belqorod vilayətinin sərhədində etibarlı şəxsə təhvil verilib. RF İnsan Hüquqları üzrə Müvəkkil kömək edib. | 6 iyul 2023 |
| 22 | Qız | | | | |
| 23 | Qız | Ana | BQXK | Qardaş və bacı DXR-də babaları ilə birlikdə idilər. Baba uşaqların Ukraynada anasına verilməsinə etiraz etmədiyini bildirən ərizə yazıb. Uşaqlar Belqorod vilayətinin sərhədində etibarlı şəxsə təhvil verilib. RF İnsan Hüquqları üzrə Müvəkkil kömək edib. | 13 iyul 2023 |
| 24 | Qız | | | | |
| 25 | Oğlan | Bacı | | Hər iki valideynin ölümündən sonra uşaq Mariupolda idi. Müvəqqəti qəyyumluq altında bir ailəyə verildi. 22.07.2023-cü ildə Ukraynadan olan böyük bacısı, uşaq müvəkkilinin iştirakı ilə qardaşını götürdü. | 22 iyul 2023 |
| 26 | Oğlan | Ata, Nənə | | Uşaq Donetskdəki sosial müəssisədə idi. Anası ölmüşdü. Ukraynadan olan ata, nənə üçün etibarnamə və Ukrayna daxilində səyahət üçün razılıq və 01.07.2023-dən 01.01.2024-dək Ukrayna xaricində müvəqqəti çıxış üçün sənədlər hazırlamışdı. Nənə uşağı götürdü. | 25 iyul 2023 |
| 27 | Oğlan | Nənə | | Uşaq Donetskdəki sosial müəssisədə idi. Valideynləri ölmüşdü. Müvəkkil nənənin nəvəsini götürməsi üçün ona kömək etdi. | 25 iyul 2023 |
| 28 | Oğlan | Ana | BQXK | Uşaq 09.05.2023-cü ildən etibarən Ryazan vilayətində atasının yanında yaşayırdı. Ata valideynlik hüquqlarından məhrum edilməmiş və ya məhdudlaşdırılmamışdır. Ancaq ana bildirdi ki, uşaq onunla olmaq istəyir. Müvəkkilin köməyi ilə valideynlərin və uşağın birgə görüşü təşkil olundu və qərar qəbul edildi ki, oğlan Ukraynada anası ilə yaşayacaq. Onlar bir-birinə qovuşdular. | 28 avqust 2023 |

| № | Uşaq | Uşağın qovuşduğu valideyn yaxud qohum | Beybəlxalq tərəfdaşlar – qovuşma prosesinin iştirakçıları | Əvvəlki dövr və görülmüş tədbirlər | Qovuşma yaxud etibarlı şəxsə verilmə tarixi |
|---|---|---|---|---|---|
| 29 | Oğlan | Ana | BQXK | XHƏ başlamazdan əvvəl uşaq Zaporojye vilayətində nənə və babası ilə yaşayırdı, ana Polşada idi. Ana uşağı götürmək istədi və müvəkkil qovuşmağa kömək etdi. | 28 avqust 2023 |
| 30 | Oğlan | Valideynlər | | Uşaqlar LXR-də idilər, hərbiçilər onları LXR-dəki korreksiya məktəbindən çıxardılar. Uşaqlar etibarlı şəxs tərəfindən Ukraynaya valideynlərinin yanına getdilər. | 28 avqust 2023 |
| 31 | Qız | | | | |
| 32 | Oğlan | Ana | BQXK | 27.07.2023-cü ildə Sankt-Peterburq sakini müvəkkilə müraciət edərək onun yanında yaşayan qardaşı oğlunun Ukraynada anası ilə qovuşmasına kömək etməsini xahiş etdi. Ana və oğul qovuşdular. | 29 avqust 2023 |
| 33 | Oğlan | Nənə | | Uşaq Xerson vilayətindəki Aleşkinski internat evində idi, burada valideynləri onu XHƏ başlamazdan əvvəl yerləşdirmişdilər. Sənədlər əsasında oğlanla ehtimal olunan nənə arasındakı qohumluğu müəyyən etmək mümkün olmadı. Qohumluq DNT ekspertizası vasitəsilə təsdiqləndi. Uşaq nənəsinə təhvil verildi. | 31 avqust 2023 |
| 34 | Oğlan | Ana | BQXK | Oğlan RF-də, Krasnodar diyarında yaşayırdı. Valideynlər uşağın Ukraynada anası ilə yaşayacağına qərar verdilər. Ana uşağı götürdü. | 6 sentyabr 2023 |
| 35 | Qız | Ata | BQXK | İki bacı Xerson vilayətində dayə ilə yaşayırdılar. Uşaqlar ananı yeddi il ərzində görməmişdilər, ana onların həyatında iştirak etmirdi və maddi dəstək göstərmirdi. 2011-ci ilin məhkəmə qərarı ilə uşaqların ataları ilə yaşayacağı qərara alınmışdı. 28.07.2023-cü ildə uşaqlar atalarına Ukraynada olmaq istədiklərini bildirən ərizə yazdılar. Qızların atasının razılıq verdiyi etibarlı şəxsə təhvil verilməsi RF-nin Novorossiysk şəhərində baş tutdu. Sonra uşaqlar ataları ilə qovuşdular. | 6 sentyabr 2023 |
| 36 | Qız | | | | |
| 37 | Oğlan | Nənə | Qətər Dövləti, BQXK | Oğlan Bryansk vilayətində anası ilə yaşayırdı, lakin anası təcridxanaya düşdü və uşaq müvafiq şəkildə uşaq müəssisəsində yerləşdirildi. Nənənin nəvəsini götürməsi üçün kömək göstərildi və o, nəvəsini evinə apardı. | 14 oktyabr 2023 |
| 38 | Oğlan | Ana | Qətər Dövləti, BQXK | 2022-ci ildə uşaqlar Xerson vilayətinin uşaq evindən Krım Respublikasına təxliyə edildilər. Uşağının dalınca gəlmək üçün Ukraynadan gələn anaya kömək göstərildi. | 13 oktyabr 2023 |
| 39 | Oğlan | Valideynlər | Qətər Dövləti, BQXK | Yeniyetmə Xerson vilayətində nənə və babası ilə yaşayırdı. Ana uşağın Ukraynaya köçməsinə kömək göstərilməsini xahiş etdi, onu müşayiət etmək üçün nənəyə etibarnamə verdi. Ailə qovuşdu. | 16 oktyabr 2023 |
| 40 | Qız | Valideynlər | Qətər Dövləti, BQXK | Qız XHƏ başladıqdan sonra Avropanın bir ölkəsində təhsil almağa getməli idi, lakin öz istəyi ilə Rusiyaya gəldi və 2023-cü ilin iyununda qanuni nümayəndəsi olmayan şəxs kimi sosial müəssisəyə yerləşdirildi. Valideynlər qızlarını özləri götürə bilmədilər. Müvəkkilin köməyi ilə ailə qovuşdu. | 16 oktyabr 2023 |
| 41 | Oğlan | Qəyyum (ananın doğma bacısı) | Qətər Dövləti, BQXK | Uşağın anası Ukrayna Silahlı Qüvvələrinin hərbçisi idi, əsirlikdə idi. Oğlan anasının qardaşı, yəni dayısı ilə DXR-də yaşayırdı. Uşağın atası ölmüşdü. Ananın doğma bacısı Ukraynadan gələn bacısı oğluna qəyyumluq etdi. Oğlan Ukraynadan etibarlı şəxs tərəfindən götürüldü. Oğlan xalası ilə birlikdə yaşamağa başladı. | 1 dekabr 2023 |
| 42 | Oğlan | Ana | Qətər Dövləti, BQXK | 2022-ci ilin martından etibarən uşaq nənəsi ilə LXR-də yaşayırdı. Anası Ukraynadan şəxsən gəldi və oğlunu götürdü. | 1 dekabr 2023 |

| № | Uşaq | Uşağın qovuşduğu valideyn yaxud qohum | Beybəlxalq tərəfdaşlar – qovuşma prosesinin iştirakçıları | Əvvəlki dövr və görülmüş tədbirlər | Qovuşma yaxud etibarlı şəxsə verilmə tarixi |
|---|---|---|---|---|---|
| 43 | Oğlan | Ana | Qətər Dövləti, BQXK | Uşaq Zaporojye vilayətində nənə və babası ilə yaşayırdı. Ana Ukraynadan müşayiət edən şəxsə etibarnamə verdi. | 1 dekabr 2023 |
| 44 | Qız | Ana | Qətər Dövləti, BQXK | Uşaqlar anasının ikinci əri və böyük bacısı ilə DXR-də yaşayırdılar. Ukraynadan olan ana böyük qızına bacılarını müşayiət etmək üçün etibarnamə verdi. Onlar qovuşdular. | 1 dekabr 2023 |
| 45 | Qız | | | | |
| 46 | Oğlan | Ana | Qətər Dövləti, BQXK | Oğlan Xerson vilayətində nənə və babası ilə yaşayırdı. Anasına qayıtmaq istəyirdi. Ananın Ukraynadan Rusiyaya oğlunun dalınca gəlməsi təşkil edildi. | 2 dekabr 2023 |
| 47 | Oğlan | Ana | Qətər Dövləti, BQXK | Uşaqlar Xerson vilayətində nənə və babası ilə yaşayırdılar. Ana şəxsən Ukraynadan gəlib onları götürdü. | 10 dekabr 2023 |
| 48 | Qız | | | | |
| 49 | Oğlan | Ana | Qətər Dövləti, BQXK | Ata uşağı ilə birlikdə Ukraynadan RF-nin Krasnoyarsk şəhərinə köçdü və orada onunla bir yerdə yaşadı. Ata insult keçirdikdən sonra müalicə müəssisəsinə yerləşdirildi. Uşaq internat müəssisəsində idi. Anası Ukraynadan oğlunun dalınca gəldi. | 18 fevral 2024 |
| 50 | Qız | Ana | Qətər Dövləti, BQXK | Ukraynadan olan ana 2022-ci ilin fevral ayında uşağı nənə və babasının yanına Zaporojye vilayətinə apardı. Nənə uşağı Minskə qədər müşayiət etdi və orada qızını anasına təhvil verdi. | 19 fevral 2024 |
| 51 | Qız | Dayı | Qətər Dövləti, BQXK | 2021-ci ildə Ukraynadakı valideynlər çətin maddi vəziyyətə görə uşaqların Xerson uşaq evinə yerləşdirilməsi üçün qəyyumluq və himayə orqanlarına müraciət etdilər. 30.11.2022-ci ildən etibarən uşaqlar Krım Respublikasında müəssisədə yerləşdirildilər. 07.12.2022-ci ildə qızların valideynləri öldü və buna görə də, 20.11.2023-cü ildə onlara Ukraynadan doğma dayıları qəyyumluq etdi. Uşaqlar, etibarnamə ilə müşayiətçi tərəfindən sərhədi keçdilər və dayı ilə qovuşdular. | 18 fevral 2024 |
| 52 | Qız | | | | |
| 53 | Qız | Xala | Qətər Dövləti, BQXK | Qız Zaporojye vilayətində anası ilə yaşayırdı. 01.05.2023-cü ildə qadın atəş nəticəsində öldü. Rusiyada qızın anasının rəfiqəsi, RF vətəndaşı, qızın müvəqqəti qəyyumluğunu aldı. Qızın xalası Ukraynada baclsl qızına qəyyumluğu rəsmiləşdirdi. Qız yerli qəyyumluq və himayə orqanlarına Ukraynada xalası ilə yaşamaq istədiyini təsdiqlədi. Onlar qovuşdular. | 18 fevral 2024 |
| 54 | Oğlan | Ana | Qətər Dövləti, BQXK | 2022-ci ildə uşaqlar Xerson vilayətinin uşaq evindən Krım Respublikasına təxliyə edildilər. Onlar müşayiətçi işçinin müşayiəti ilə Moskvaya gəldilər və orada Ukraynadan gələn anaya təhvil verildilər. | 18 fevral 2024 |
| 55 | Qız | | | | |
| 56 | Oğlan | Dayi | Qətər Dövləti, BQXK | Uşaqlar Mariupolda (DXR) anaları ilə yaşayırdılar. 7.11.2023-cü ildə qadın öldü. Analarının ölümündən sonra uşaqları uzaq bir qohum müvəqqəti olaraq qəbul etdi. Ukraynada yaşayan dayıları uşaqlara qəyyumluq etdi. Uşaqlar dayıları ilə qovuşdular. | 18 fevral 2024 |
| 57 | Qız | | | | |
| 58 | Oğlan | Ana | Qətər Dövləti, BQXK | XHƏ-nin başlaması zamanı uşaq Mariupolda (DXR) xalası ilə qalırdı. Anası Ukraynadan oğlunu götürmək istədi. Ailə qovuşdu. | 18 fevral 2024 |
| 59 | Oğlan | Xala | Qətər Dövləti, BQXK | 07.07.2022-ci ildə təxliyə cəhdi zamanı ana və böyük qardaş öldü, oğlan yaralandı və Luqanskda xəstəxanaya yerləşdirildi. LXR-də uşağın qəyyumu qonşu oldu. Uşağı Ukraynadan götürmək istəyən xala idi. Oğlan ona təhvil verildi. | 18 fevral 2024 |

| № | Uşaq | Uşağın qovuşduğu valideyn yaxud qohum | Beybəlxalq tərəfdaşlar – qovuşma prosesinin iştirakçıları | Əvvəlki dövr və görülmüş tədbirlər | Qovuşma yaxud etibarlı şəxsə verilmə tarixi |
|---|---|---|---|---|---|
| 60 | Oğlan | Nənə | Qətər Dövləti, BQXK | Uşaq Xerson vilayətindəki Alyoşkin uşaq internat evində idi. Oğlanın mürəkkəb xəstəliyi var idi, bu səbəbdən azyaşlının təhlükəsiz daşınması üçün iki nəfərin müşayiəti ilə fərdi nəqliyyat vasitəsilə hərəkət etməsi lazım idi, onlardan biri kişi olmalı idi. Müşayiət edənlərdən biri də tibbi təhsil almış olmalı idi. Uşağın Ukraynadan gələn nənəsi qovuşma müraciəti ilə çıxış etdi. Oğlan müəssisə işçilərinin müşayiəti ilə qatarda Moskvaya gəldi. Moskvadan təcili yardım maşını ilə müşayiətçilərlə birlikdə Ukrayna sərhədinə qədər çatdırıldı. | 21 mart 2024 |
| 61 | Qız | Ana | Qətər Dövləti, BQXK | Uşaqlar valideynsiz qaldılar və 10.01.2022-ci ildə xəstəxanaya yerləşdirildilər, sonra Xerson vilayət uşaq evinə yönləndirildilər. Daha sonradan isə Krım Respublikasında bir müəssisədə yaşadılar. Onları Ukraynadan gələn ana götürmək istədi. Ailə qovuşdu. | 20 mart 2024 |
| 62 | Qız | | | | |
| 63 | Oğlan | Nənə | Qətər Dövləti, BQXK | Uşaq Donetskdə uşaq müəssisəsində idi. Uşağın anası 02.06.2023-cü ildə öldü. Atanın yeri haqqında məlumat uzun müddət mövcud deyildi. DXR-də ehtimal ki, uşağın atasına aid olan qalıqlar aşkar edildi. Qalıqların DNT ekspertizası keçirildi. O, qalıqların uşağın atasına məxsus olduğunu təsdiqlədi. Məlumatın sənədlə təsdiqi uşağın atasından himayəsini itirdiyini müəyyənləşdirməyə və uşağı qəyyumluğa verməyə imkan verdi. Uşağın qəyyumluğunu Ukrayna vətəndaşı olan anasının nənəsi aldı. Uşaq müəssisə işçisinin müşayiəti ilə Moskvaya gətirildi, burada Ukraynadan gələn nənəsinə təhvil verildi. | 20 mart 2024 |
| 64 | Qız | Ana | Qətər Dövləti, BQXK | Oğlan Zaporojye vilayətində babası ilə yaşayırdı. Ukraynada yaşayan anası, oğlunun onunla qovuşmasına kömək etməyi xahiş etdi, oğlan da anasına getmək istəyini bildirdi. Oğlan anasının etibarnaməsi ilə müşayiət edən şəxsə təhvil verildi. Ukraynada onlar qovuşdular. | 20 mart 2024 |
| 65 | Oğlan | Ana | Qətər Dövləti, BQXK | Oğlan dayısı və onun ailəsi ilə Rusiyada yaşayırdı. Anası Ukraynadan oğlunun qovuşmasına kömək etməyi xahiş etdi. Oğlan dayısının müşayiəti ilə Moskvaya gəldi, burada Ukraynadan gələn etibarlı şəxsə təhvil verildi. Sonradan o, anası ilə qovuşdu. | 21 may 2024 |
| 66 | Oğlan | Ana | Qətər Dövləti, BQXK | Uşaq LXR-də ana tərəfdən nənəsi və babası, həmçinin böyük bacısı ilə yaşayırdı. Anası oğlunun qovuşmasını istədi. Bacısının müşayiəti ilə Moskvaya gəldi, burada Ukraynadan gələn etibarlı şəxsə təhvil verildi. Ukraynada o, anası ilə qovuşdu. | 21 may 2024 |
| 67 | Oğlan | Ana | Qətər Dövləti, BQXK | Oğlan DXR-də nənəsi ilə yaşayırdı. Anası Ukraynadan qovuşmağa kömək etməyi xahiş etdi. O, müşayiət edənlə birlikdə Moskvaya gəldi, burada Ukraynadan gələn etibarlı şəxsə anası ilə qovuşmaq üçün təhvil verildi. | 21 may 2024 |
| 68 | Oğlan | Dayı | Qətər Dövləti, BQXK | Uşaqlar Zaporojye vilayətində anaları ilə yaşayırdılar. O, 12.10.2023-cü ildə avtomobil qəzasında öldü. Uşaqlar nənəsi ilə yaşadılar, o, müvəqqəti qəyyumluğu aldı. Uşaqları götürmək Ukraynadan gələn dayısı istəyirdi. Qovuşma baş verdi. | 21 may 2024 |
| 69 | Oğlan | | | | |
| 70 | Oğlan | Ana | Qətər Dövləti, BQXK | XHƏ-nin başlaması zamanı ana Kiyevdə idi, oğlan isə Zaporojye vilayətində anasının bacısı, yəni xalası ilə yaşayırdı. Uşağın atası haqqında heç nə məlum deyil. Anası oğlunu şəxsən götürə bilmədi: Ukraynadan Rusiyaya giriş cəhdi zamanı ona imtina edildi. Xala uşağı Moskvaya gətirdi, burada o, Ukraynadan gələn müşayiət edən şəxsə anası ilə qovuşmaq üçün təhvil verildi. Onlar birlikdədirlər. | 21 may 2024 |

## RF Prezidenti yanında Uşaq hüquqları üzrə Müvəkkilin iştirakı ilə doğmalarına qovuşmuş (Rusiyada) uşaqlar haqqında məlumat

| № | Uşaq | Uşağın qovuşduğu valideyn yaxud qohum | Beybəlxalq tərəfdaşlar – qovuşma prosesinin iştirakçıları | Əvvəlki dövr və görülmüş tədbirlər | Qovuşma yaxud etibarlı şəxsə verilmə tarixi |
|---|---|---|---|---|---|
| 1 | Qız | Ana | | Qızın atası keçmiş həyat yoldaşı ilə razılaşmadan uşağı naməlum istiqamətə aparıb. Qadın müvəkkilə müraciət etdikdə qız Ukraynanın sosial-psixoloji reabilitasiya mərkəzində idi. Ana müşayiət edən şəxs üçün etibarnamə rəsmiləşdirdi, o da qızı anasına gətirdi. | 11 oktyabr 2023 |
| 2 | Oğlan | Ana | Qətər Dövləti | Ana 2019-cu ildə oğlunu Ukraynada nənəsinə aparıb, lakin özünü götürə bilməyib. Uşağın anası ilə qovuşmasına kömək göstərildi. | 18 dekabr 2023 |
| 3 | Oğlan | Ata, ana | Qətər Dövləti | Uşaqlar ailə vəziyyəti ilə əlaqədar Ukraynada nənələri ilə yaşayırdılar. Valideynləri bir neçə dəfə uşaqları evə aparmağa cəhd etsələr də, uşaqların lazımi sənədləri yox idi. Ukrayna tərəfi ilə razılıq əldə edildi və uşaqlar nənələrinin müşayiəti ilə valideynlərinin yanına Rusiyaya qayıtdılar. | 22 dekabr 2023 |
| 4 | Oğlan | | | | |
| 5 | Qız | | | | |
| 6 | Oğlan | Nənə | Qətər Dövləti | Oğlanın valideynləri vəfat edib və o, Ukraynada babasının qardaşı ilə yaşayırdı. Uşaq nənəsinə Rusiyaya köçmək istəyirdi. Göstərilən yardım nəticəsində ailə qovuşdu. | 19 mart 2024 |
| 7 | Oğlan | Nənə | Qətər Dövləti, BQXK | 2021-ci ildə ana uşaqları ilə Ukraynaya qonaq gəlib və sonra da orada çıxa bilməyiblər. Uşaqların nənəsi kömək üçün müraciət edib. Ailə çıxa bilmirdi, çünki kiçik uşağın xarici pasportu yox idi və miqrasiya qaydaları ölkəni tərk etməyi tələb edirdi. Razılaşmalar nəticəsində ailə Rusiyaya qayıdıb və yaxınları ilə qovuşub. | 7 iyun 2024 |
| 8 | Oğlan | | | | |
| 9 | Qız | | | | |

RUSIYA FEDERASIYASI PREZIDENTI
YANINDA UŞAQ HÜQUQLARI ÜZRƏ MÜVƏKKIL

deti.gov.ru

vk.com/
malvovabelova

t.me/
malvovabelova